AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**N.S. SEYFULLAYEVA**

# COĞRAFİYANIN TƏDRİSİ METODİKASI

**Dərslik**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.08. 2011-ci il tarixli 1475 saylı əmri ilə ali məktəblər üçün dərslik kimi təsdiq edilmişdir.*

**BAKI 2011**

Elmi redaktoru: coğrafiya elmləri doktoru
professor V.Ə. Əfəndiyev

91(07)
S 37

Rəyçilər: coğrafiya elmləri doktoru
E.K. Əlizadə

pedaqoji elmlər namizədi
O.K. Alxasov

coğrafiya elmləri namizədi
H.Ə. Sultanova

Coğrafiya elmləri namizədi
Y.Ə. Qəribov

Kompyuter tərtibatçısı: Firəngiz Qasımova

Seyfullayeva Nərminə Səftər qızı, pedaqoji elmlər namizədi.
Coğrafiya tədrisi metodikası. Ali məktəblər üçün dərslik
«EMK » nəşriyyatı. Bakı 2011.

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

# MÜNDƏRİCAT

*Giriş* ............................................................................7

## MÖVZU I.
## COĞRAFİYA TƏDRİSİ METODİKASI BİR ELM KİMİ

**1.1. Coğrafiya tədrisi metodikasının predmeti, məqsədi, vəzifələri** ............................................................11
**1.2. Coğrafiya tədrisi metodikasının inkişaf tarixi** ..........22
**1.3. Coğrafiya tədrisi metodikasının tədqiqat metodları** ..................................................33
**1.4. Coğrafiya tədrisi metodikasının digər elmlər ilə əlaqəsi** ....................................................................42
**1.5. Coğrafiya tədrisi metodikasının müasir elmi –metodiki işlərin əsas istiqamətləri** ..........................47

## MÖVZU II.
## ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ COĞRAFİYA FƏNNİNİN TƏDRİSİ

**2.1. Orta ümumtəhsil məktəblərinin tədris planında coğrafiyanın yeri və strukturu** ....................................56
**2.2. Məktəb coğrafiyasının məzmunu və məqsədi** .............62
**2.3. Milli kurrikulumda coğrafiya fənninin tədrisi** ...........71

## MÖVZU III.
## COĞRAFİYA TƏDRİSİNİN PEDAQOJİ-PSİXOLOJİ ƏSASLARI

**3.1. Müasir məktəb sisteminin psixoloji təhlili** ................76

3.2. Coğrafiya tədrisində müəllim və şagird münasibətləri ........ 92
3.3. Coğrafiya müəlliminin əsas vəzifələri ........ 106
3.4. Coğrafiya tədrisinin başlıca prinsipləri ........ 112

MÖVZU IV.
COĞRAFİ BİLİKLƏRİN FORMALAŞDIRILMASI METODİKASI

4.1. Coğrafi biliklər təlim prosesinin əsası kimi ........ 117
4.2. Nəzəri coğrafi biliklərin formalaşdırılmasının metodikası ........ 123
4.3. Emprik (təcrübi) coğrafi biliklərin formalaşdırılmasının metodikası ........ 153

MÖVZU V.
COĞAFİYA TƏLİMİNİN METODLARI

5.1. Təlim metodları anlayışı ........ 169
5.2. Bilik mənbələrinə görə təlim metodları ........ 173
5.3. İdrak fəaliyyətinin xarakterinə görə təlim metodları ........ 195
5.4. Coğrafiya tədrisində yeni pedaqoji texnologiyaların tətbiqi ........ 203

MÖVZU VI.
COĞRAFİYA TƏDRİSİNİN TƏŞKİLAT FORMALARI

6.1. Dərs – pedaqoji prosesin əsası kimi ........ 268
6.2. Coğrafiya dərslərinin tipləri ........ 283
6.3. Coğrafiya tədrisinin formaları ........ 287

6.4.Coğrafiya dərslərində şagird fəaliyyətinin
təşkili formaları ........................................................ 292
6.5. Coğrafiya tədrisində dərsdənkənar (sinifdənxaric)
təşkilat formalarının aparılması ........................................ 299

## MÖVZU VII.
## COĞRAFİYA TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN ƏYANİ VƏSAİTLƏR

7.1.Tədris vəsaitləri və onun əhəmiyyəti ........................ 308
7.2. Dərslik – ən mühüm tədris vəsaitidir ........................ 319
7.3. Xəritə və digər kartoqrafik təsvirlər üzərində
aparılan işlər ........................................................ 326
7.4.Coğrafiya tədrisində kompyuter texnologiyasının
tətbiqi ........................................................ 361
7.5. Coğrafiya kabineti ........................................................ 373

## MÖVZU VIII.
## COĞRAFİ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

8.1. Bilik və bacarıqların yoxlanılmasına verilən
tələblər ........................................................ 377
8.2. Coğrafi biliklərin qiymətləndirilməsi ........................ 382
8.3. Qiymətləndirilmənin növləri
və formaları ........................................................ 387
8.4.Coğrafiya tədrisində test tapşırıqları ilə
yoxlama metodikası ........................................................ 406
8.5.Coğrafi biliklərin yoxlanılmasında tətbiq
olunan yeni texnologiyalar ........................................ 425

## MÖVZU IX.
## ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏDRİS OLUNAN COĞRAFİYA KURSLARININ TƏDRİSİ METODİKASI

9.1. «Ümumi fiziki coğrafiya» (VI sinif) və «Yerşünaslıq» (X sinif) kurslarının tədrisi məsələləri ....................................................................446
9.2. « Materiklər və okeanların fiziki coğrafiyası» (VII sinif) kurslarının tədrisi məsələləri .......................455
9.3. «Azərbaycan Respublikasının fiziki coğrafiyası» və «Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası» (VIII sinif) kurslarının tədrisi məsələləri ....460
9.4. «Dünyanın iqtisadi və sosial coğrafiyası»( IX sinif) və «Türk dünyasının coğrafiyası» (XI sinif) kurslarının tədrisi məsələləri ..........................................................471

## MÖVZU X.
## COĞRAFİYA FƏNNİ ÜZRƏ SİNİFDƏNKƏNAR İŞLƏRİN TƏŞKİLİ

10.1. Sinifdənkənar tədbirlərin təşkili formaları.............479

ƏDƏBİYYAT..................................................................489

*Unudulmaz müəllimim,professor M.Müseyibovun əziz xatirəsinə ithaf olunur!*

# GİRİŞ

Cəmiyyətin inkişafının .bütün dövrlərində öyrətmə və öyrənmə prosesi aktual olmuş və daima yeniliklərin tətbiq edilməsini tələb etmişdir.Təhsildə aparılan islahatlar isə təlim və tərbiyə prosesinin təkmilləşdirilməsinə səbəb olur. Təlim anlayışını təhsilin məzmunu və bu məzmunun ötürülməsi yollarının cəmi kimi qəbul etmək mümkündürsə, o zaman islahatların aparılmasının nə qədər məsuliyyət tələb etdiyi ortaya çıxır. Təlimin yeni qanunauyğunluqlarını aşkara çıxarmaq, onun yeni metodlarını yaratmaq və ya təlim metodlarını cəmiyyətin təlabatına uyğunlaşdırmaq həyatı təlabata çevrilir. Məlumdur ki, XXI əsrə qədəm qoymuş Azərbaycanın hərtərəfli inkişaf etmiş vətəndaş cəmiyyəti qurucularına çox böyük ehtiyacı vardır. Bu tələb Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddələrində öz əksini tapmışdır. Konstitusiyanın 42-ci maddəsi Azərbaycan vətəndaşlarının təhsil hüququna həsr edilib. Əsas Qanunumuzda deyilir ki, "hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir. Dövlət minimum təhsil standartlarını müəyyən edir". Təhsilin əsas məqsədi kimi isə Təhsil qanununun 4-cü maddəsində aşağıdakı kimi qeyd edilir: «Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən xalqınn milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüqüqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək; sistemləşdirilmiş bilik, bacarıq, vərdişlərin mənimsənilməsini və ixtisasının

daim artırılmasını təmin etmək, təhsil alanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq;»- və s.bütün bunlar gələcək nəsli tərbiyə edənlərdən cəmiyyət üçün tam yetkin şəxsiyyətin formalaşdırılmasını tələb edir.Müasir dövrdə həyatın tələblərinə baxış dəyişmiş və gənc nəslə həyatı bacarıqlara, əsaslanan təhsilin verilməsi problemə çevrilmişdir. Adı çəkilən problemlərin həll edilməsində, sovet dövründə heç bir dəyişikliklərə məruz qalmadan, uzun müddət istifadə olunan ənənəvi metodlar imkansızdır.

Təhsil sisteminin fənnlər blokunda özünəməxsus mövqeyə malik olan coğrafiya kursunun müasir məzmunu yarandığı vaxtdan fiziki coğrafiyanın, iqtisadi coğrafiyanın və kartoqrafiyanın əsasları üzrə biliklər sistemi daxil edilmişdir. Eyni zamanda nəyi öyrənmək problemi ilə yanaşı onu necə öyrətmək mövzusu da aktual olmuşdur. Məktəb coğrafiyası kursunun məzmununda son dövrdə ciddi təkmilləşdirmə aparılmış təlimin məzmunu müasirləşdirilmiş və tədrisin praktik istiqaməti gücləndirilmişdir. Unutmaq olmaz ki, hələ keçən əsrin 50-ci illərində məktəb coğrafiyasının məzmununa dair ciddi araşdırmalar aparılmış, politexnik tədrisin məzmunu müəyyən edilmiş, iqtisadiyyatın əsasını təşkil edən təbii ehtiyatların yerləşməsinin öyrənilməsinə, istehsalın təşkili və texnologiyası məsələlərinə diqqət artırılmışdır. Coğrafiyanın tədrisində praktik yönümlü problemlərin həllində- təbii ehtiyatlardan səmərəli istifadə prosesində əmək ehtiyatlarından düzgün istifadə edilməsinə, müxtəlif təsərrüfat müəssisələrinin, yerləşmə prinsipinə, yeni yaşayış məntəqələrinin salınmasına, hər hansı müəssisənin tikilməsinə, kənd təsərrüfat bitkilərinin əkilməsinə, suvarma kanallarının və magistral yolların çəkilməsinə və s. məsələlərin həllinə dair şagirdlərin özlərinin müstəqil qərar vermək bacarığının formalaşdırılması eyni zamanda, çıxarılan qərarları əsaslandırmaq, onun nə dərəcədə düzgün olmasını sübut etmək üçün tutarlı dəlillərin gətirilməsi və s vərdişlər

coğrafiya fənninin tədrisində yeni texnologiyaları tətbiq etməklə mümkündür, bu isə fənnin tədrisi metodikasında güclü dəyişikliklər tələb edir. Müasir məlumat-kommunikasiya dövründə təhsilin əsas problemlərindən biri də müxtəlif elm sahələrində cəmlənən bilik kütləsinin əhəmiyyətli dərəcədə artması nəticəsində yaranan informasiyanın şagirdlərə çatdırılmasıdır. Dərsin əsas ölçüsünün inkişafetdirici, tərbiyəedici və təhsilverici məqsəd olduğu və bu üç məqsədli dərs məkanında pedoqoji, psixoloji və metodiki dəyərlərin dəyişildiyi bir şəraitdə, mövcud olan informasiyanın məzmununu müəyyən etmək isə mütəxəssislər tərəfindən müzakirə obyektinə çevrilmişdir. «Hafizə məktəbi» -nin tərəfdarları ənənəvi sistemə üstünlük verərək fənnin məzmununa daxil olan biliklərin şagirdlərə çatdırılmasına üstünlük verir və dəyişiklikləri, həmin elm sahəsində yaranan yeni informasiyaları məzmuna daxil etməkdə görürlər.

« Təfəkkür məktəbi»- nin tərəfdarları isə şəxsiyyət amilini üstün tutaraq şagirdə «obyekt» kimi deyil, «subyekt» kimi müraciət etməyin əhəmiyyətini əsaslandırır, onu təlim-tərbiyə prosesinin mərkəzinə gətirərək, təlimin məzmununu məqsəd kimi deyil, yalnız vasitə olduğunu iddia edirlər. Azərbaycan Respublikasında təhsil sistemində aparılan islahatlar məhz, «Təfəkkür məktəbi»nin tərəfdarlarının təklifləri istiqamətində inkişaf etdirilir ki,bu konsepsiya təhsilin humanistləşdirilməsinə, şagirdlərdə milli keyfiyyətləri saxlamaqla, qlobal düşüncə tərzinin inkişaf etdirilməsinə, digər xalqların mədəni- əxlaqi xüsusiyyətlərinə tolerant yanaşmaqla təhsilin demokratikləşməsinə, özünənəzarət və özünüqiymətləndirmə proseslərinin aktivləşməsinə, idrak fəaliyyətinin tənzimləşməsinə, şəxsiyyətlərarası münasibətlərdə «insan» faktorunun önəmli yer tutmasına və s. əxlaqi xüsusiyyətlərin yaradılmasına və formalaşmasına təkan verir.

«Təfəkkür məktəbinin» tələbləri və dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, təhsilin inkişafı, əvvəldə olduğu kimi məktəb fənnlərinin tədrisi prosesində mümkündür. Orta məktəbdə tədris olunan fənnlərin məzmunu, tədrisi metodikasında aparılan islahatlar da şagirdlərin təfəkkürünün inkişafına yönəldilmişdir.

«Coğrafiyanın tədrisi metodikası» kursunun əsas məqsədləri müasir dövrün tələblərinə uyğunlaşaraq
- nəyi öyrənmək ( kursun məzmunu)
- niyə öyrənmək ( kursun məqsədi)
- necə öyrətmək ( tədris metodları)
- nəyin köməyi ilə öyrətmək ( tədris vəsaitləri) –dir.

Kursun qarşısında duran ümumi məsələləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:
- müəllimin təlim prosesində «öyrədən» roluna istiqamətlənmiş pedaqoji hazırlığını təmin etmək;
- şagirdin tədris prosesində « öyrənən» rolunda çıxış etməsi üçün imkanlarını təhlil etmək;
- məktəb coğrafiyasının təhsilverici, inkişafetdirici və tərbiyəedici vəzifələrini müəyyən etmək və yerinə yetirmək;
- coğrafiya fənninin tədrisində müasir interaktiv metodların tətbiq edilməsi imkanlarını öyrətmək;
- kartoqrafik bilik və bacarıqların sistemli şəkildə tətbiq edilməsinin yollarını başa salmaq;
- şagirdlərin müstəqil yaradıcılığını, sərbəst fəaliyyətinin təşkil edilməsi üçün onları istiqamətləndirmək;
- təlim-tərbiyə prosesinin praktikliyini artırmaq məqsədi ilə müxtəlif vəsaitlərdən istifadə etmək bacarığını formalaşdırmaq;
- coğrafi biliklərin obyektiv qiymətləndirilməsi məqsədi ilə müxtəlif variantlarını praktiki olaraq tətbiq etmək və s bacarıqlarını formalaşdırmaqdır.

Məktəb coğrafiyasının tədris məsələlərinə həsr olunmuş dərslik universitet və ali məktəblərin magistr və tələbələri,

coğrafiya tədrisi metodikası üzrə tədqiqatçı mütəxəssislər, metodist və eləcə də orta məktəbin coğrafiya müəllimləri üçün nəzərdə tutulmuşdur. Dərslik giriş ,10 mövzu , 39 paraqraf, əlavələr və ədəbiyyat siyahısından ibarətdir

**«Mən eşidəndə unuduram, görəndə yadda saxlayıram, özüm əldə edəndə dərk edirəm»**
**Çin atalar sözü**

## MÖVZU I. COĞRAFİYA TƏDRİSİ METODİKASI BİR ELM KİMİ

### 1.1. Coğrafiyanın tədrisi metodikasının predmeti, məqsədi və vəzifələri

Coğrafiya müəllimlərinin metodiki bilik və bacarıqlarının formalaşdırılması, onun inkişaf etdirilməsi-coğrafiya tədrisi metodikasının əsas predmeti olub, cəmiyyətin inkişafında baş verən dəyişiklikləri əks etdirir. Demokratik tələblərin aparıcı qüvvəyə çevrildiyi müasir dövr mövcud olan təhsil sisteminin əsaslı dəyişikliklərlə daima yeniləşməsini tələb edir. Gənc və yeniyetmələrin həyata hazırlanmasında, demokratik dəyərlərin qiymətləndirilməsində istiqamətləndirici kimi coğrafiya müəlliminin də rolu daim artır. Məhz bu baxımdan coğrafiya tədrisi metodikasının xidmətləri böyükdür.

Coğrafiyanın tədrisi metodikasının predmeti –coğrafi elmlərə əsaslanan məktəb coğrafiyasının köməyi ilə müxtəlif pedoqoji əməliyyatlar tərtib etmək və məktəblilərin təlim və tərbiyəsinin inkişaf etdirilməsinə nail olmaqdır.

Coğrafiya tədrisi metodikası fənn daxilində «nəyi?», «necə?», və «niyə?» öyrətmək suallarına cavab verir və şagirdlərin müstəqil düşüncəyə malik, yaradıcı və

təşəbbüskar şəxsiyyət kimi formalaşdırılmasını bilavasitə təchiz edir.

Təlim prosesinin məqsədi, məzmunu, istifadə olunan vəsaitlər, metod və formaların seçilməsi, onların dərs və dərsdənkənar proseslərdə təşkili də coğrafiya tədrisi metodikası ilə bilavasitə əlaqədardır.

Azərbaycan Respublikasının Təhsil sistemində islahatların aparıldığı müasir zaman kəsiyində coğrafiyanın tədrisi metodikasına olan münasibət xeyli dəyişmişdir. Bunu aşağıdakı sxemdə olduğu kimi əks etdirmək olar (Sxem 1).

**Coğrafiya tədrisi metodikasının mahiyyəti. Sxem 1.**




Coğrafiya tədrisi metodikası müəllim və şagirdlərin qarşılıqlı fəaliyyəti əsasında əldə olunan coğrafi bilik və bacarıqların mənimsənilməsi prosesini öyrənir. Kursun göstərilən xarakteri, ona pedoqoji və coğrafi elmlərə

əsaslanmağı tələb edir. Ümumtəhsil məktəblərdə coğrafi qanunauyğunluqların öyrədilməsi prosesində şagirdlərin yaş psixologiyasını nəzərə almaq tələb olunur ki, bu da coğrafiya tədrisi metodikasına didaktikanın tərkib hissəsi kimi çıxış etmək imkanı verir.

Müasir didaktika – nəzəri elmlərdən biri olub, təlim prosesində mövcud olan qanunauyğunluqları, şagirdlərin tərbiyə və inkişafını tədqiq edir və təlim prosesi üçün ümumi modellərin yaranmasını təmin edir. Fənnlər üzrə konkret modellərin tətbiqi isə bilavasitə coğrafiya tədrisi metodikasının vəzifəsidir.

Məlumdur ki, hər hansı fənnin tədrisi prosesində şagirdlərin vətənpərvərlik, estetik, ekoloji, iqtisadi və s.tərbiyəsinin formalaşdırılması prosesi aparılır ki, bu da dəqiq, təbiət və humanitar fənnlərin tədrisində özünəməxsus xüsusiyyətlərə malikdir. Coğrafiyanın tədrisi metodikasının özünəməxsusluğunu bu elmin həm təbiət, eləcə də ictimai fənnlər bloku arasında aralıq bir mövqedə olması ilə əlaqələndirmək mümkündür.

Müasir coğrafiya mürəkkəb quruluşa malik olub: «Təbiət – cəmiyyət – insan» - qarşılıqlı sistemini əhatə edir. Təbiətə təsir insan faktorunun yaratdığı ekoloji dəyişikliklərin bəşəriyyətin gələcək inkişafına təsiri baxımından təhlil edir.

Coğrafiyanın tədrisi prosesində müxtəlif aparıcı ideyalar nəzərə alınmalıdır:

- fiziki-iqtisadi-coğrafi biliklərin inteqrasiyası-hər hansı ərazinin (ölkənin) kompleks öyrənilməsi – konstruktiv coğrafiyanın tətbiqi imkanlarının araşdırılması;
- şagirdlərdə kartoqrafik bilikləri diqqət mərkəzində saxlamaq və kartoqrafik təsvir vasitələrinin köməyi ilə coğrafi biliklərin formalaşdırılması;
- şagirdlərin məntiqi düşüncəsində üçpilləli məkan anlayışını – yerli, regional və qlobal miqyasda öyrənilməsinin təmin edilməsi;

- nəzəri biliklərin praktik olaraq tətbiq edilməsi coğrafiya fənninin bütün mövzularında aparıcı rola malik olmasının əsaslandırılması;

- tədqiqat və axtarış, müşahidə yolu ilə coğrafi biliklərin əldə edilməsi prosesinin genişləndirilməsi və (ekskursiya və təcrübələr yolu ilə biliklərin mənimsənilməsi) bütün sinifləri əhatə olunması;

- geokoloji aspekt – fənnin məzmununda inkişafetdirici amil kimi mərkəz rolunda olması;

- coğrafi biliklərin obyektiv və əhatəli qiymətləndirilməsi üçün imkanlar – özünü qiymətləndirmə prinsipinə əsaslanmalı və şagirdlərin yaş və dərketmə imkanları səviyyəsinin nəzərə alınması və s..

Göründüyü kimi, coğrafiyanın tədrisi metodikasının rolu bilavasitə coğrafiya müəlliminin rolunu artırmağa yönəlir, onun yaradıcılıq imkanlarının tətbiq edilməsinə şərait yaradır.

Orta ümumtəhsil məktəblərinin, coğrafiya proqramında baş verən əsaslı dəyişikliklər və xüsusilə təhsil islahatlarındakı həyata keçirilməsi nəzərdə tutulan (bu prosesə artıq ibtidai siniflərdə başlanılmışdır) milli kurrikulumun tətbiq edilməsi; respublikanın dünya ölkələrinə inteqrasiyası · tədris prosesində yeniliklərin tətbiqini labüdləşdirir.

Azərbaycan Respublikasının geosiyası mövqeyi, ölkənin qərb və şərq mədəniyyətlərini qovuşduran rolunda çıxış etməsi – bütün sahələrdə eləcə də təhsil islahatlarında aparılan dəyişikliklərin çox önəmli olmasını düşünməyə imkan verir. Orta məktəbdə tədris prosesinin «başçısı» rolunda çıxış edən, ənənəvi müəllimin, sadəcə «istiqamətləndirici» və «təşkilatçı» kimi iştirak etməsini qəbul etmək məcburiyyətində qalan coğrafiya müəllimi pedaqoji ustalığını artırmaq, problemlərin həllinə yaradıcı yanaşmaq, fənnin tədrisində metodiki vasaitlərin tətbiqini artırmaq, ümumiyyətlə ixtisasını təkmilləşdirmək üçün yeni

yollar axtarmalıdır. Çünki məktəb işində müəllim mərkəz roldadır və təhsilin keyfiyyəti bilavasitə müəllimin elmi-metodiki hazırlıq səviyyəsindən asılıdır.

Metodiki ustalığın artırılması prosesi isə uzun və mürəkkəb yoldur. Əmək məşğuliyyətinə yeni başlayan coğrafiya müəllimi, ilk növbədə, fənnin tədrisindəki metodlarla tanış olmalı və onları tətbiq etmək bacarığını sınaqdan keçirməlidir. Lakin nəzərə almaq lazımdır ki, hazır metodlar «standart» və «şablon» kimi istifadə edilə bilməz. Müəllimin yaradıcılığı və sənətkarlığı ona təklif edilən mövcud metodları – sinifin və fərdin özünəməxsusluğunu nəzərə almaqla tətbiq etməkdədir. Keyfiyyətli metodik bazaya malik olan coğrafiya müəllimi şəxsi yaradıcılığını inkişaf etdirə və tədris prosesini yeniləşdirməyə qadir ola bilər. Çünki, ən ideal yeniliklər əslində unudulmuş köhnəliklərdə olur.

Sual oluna bilər: metodiki baza nədir və müəllim hazırlığında onun rolu nədədir? Metodiki baza fənnin metodiki nəzəriyyəsi olub, coğrafiya fənninin tədrisi istiqamətlərini müəyyən edir, nəzəri biliklərin praktik olaraq tətbiqinə imkan verən müəllim yaradıcılığına şərait yaradır.

Müəllim yaradıcılığı – pedoqoqun şəxsi keyfiyyətlərinə, davranış və həssaslığına əsaslanan pedoqoji fəaliyyətin əsas elementlərindən biridir. Coğrafi biliklərin əsaslarını pedoqoji ustalıq və metodiki bacarıqların köməyi ilə tədris etmək – müəllim yaradıcılığının tərkib hissəsidir. Onun mənbəyi – müəllimin şəxsi təcrübəsi, şagirdlər ilə ünsiyyəti, digər müəllimlərin və bütövlükdə kollektivin təcrübəsi, ümumi mütəxəssis hazırlığı, mövqeyi və müşahidəsidir. Pedoqoji ədəbiyyatda müəllim yaradıcılığı termini bilavasitə «pedoqoji təcrübə» sözü ilə eyniləşdirilsə də birincinin daha çox metodiki fəaliyyəti təlim və tərbiyə prosesində aktivliyi nəzərdə tutulur ki, bütün bunlar coğrafiya tədrisi metodikasının əsas predmetidir.

Metodikanı ümumi və xüsusi olmaqla iki sahəyə ayırmaq olar.Ümumi metodika coğrafiya kurslarının bütün suallarını tədqiq edir. Xüsusi metodika isə məktəb coğrafiyasının ayrı-ayrı kurslarının tərkibinə daxil olan bölmə və mövzuların tədrisinə aid verilən tövsiyyələri əhatə edir.

Orta ümumtəhsil məktəblərində coğrafiya fənninin məqsədinin yeniləşməsi - tədris metodikasının istiqamət və vəzifələrinin təkmilləşməsinə səbəb olur. Hazırda,tədris prosesində yalnız təhsil (öyrədici) deyil, eləcə də inkişafetdirici və tərbiyəedici məqsədlərinin həyata keçirilməsi daha çox əhəmiyyət daşıyır. Coğrafiya tədrisinin metodikası kursunun ümumi məqsədi təhsil sistemindəki ümumi təlim məqsədlərinə uyğun gəlir. Bunlar aşağıkılardır.

**Təhsilverici məqsədi** – yəni coğrafiya fənninin məzmunu, öyrənilməsi tələb olunan bilik, bacarıq və vərdişləri nəzərdə tutur. Orta ümumtəhsil məktəblərində coğrafiya fənninin təhsil məqsədinə:

- yer kürəsində təbii komplekslərin yaranması, təbiət hadisələri və onların baş vermə səbəblərini müşahidə edərək, səbəb-nəticə əlaqələri kontekstində təbii proseslərin dinamik inkişafının dərk etdirilməsi;
- yer planetinin təbii imkanlarının bəşəriyyətin tələbatını ödəmək baxımından hesablanması,məskunlaşma potensialı təbii resurslardan səmərəli istifadə və yaranan qlobal ekoloji problemlərin nəticələrinin proqnozlaşdırılması;
- Azərbaycan Respublikasının dünya ölkələri ilə müqayisədə fiziki, iqtisadi geosiyası xüsusiyyətlərinin özünəməxsusluğuna dair təsəvvürün yaradılması daxildir;

**İnkişafetdirici məqsəd** – ətraf aləmin dərk edilməsi, idrak fəaliyyətini artıran tapşırıqların yerinə yetirilməsi, onların təqdim edilməsi və qiymətləndirilməsi vərdişlərini nəzərdə tutur.

İnkişafetdirici məqsədə:

- təbiət proseslərinin və təbiət hadisələrinin baş vermə səbəblərini onun yerləşməsi ilə müqayisə etmək və nəticələr çıxarmaq;

- coğrafi alət və cihazlar vasitəsi ilə ətraf mühitin öyrənilməsini müşahidə etmək;

- fiziki iqtisadi və sosial coğrafi məlumatların, statistik rəqəmlərdən istifadə edərək hesablamalar aparmaq, gələcək qidalanma və insanın təbiətdən istifadə etməsinə aid cədvəl, diaqramlar qurmaq və s.

- dünyada baş verən geosiyası dəyişikliklərin Azərbaycan Respublikasına təsirini, ölkənin dünya iqtisadiyyatına, inteqrasiyasına aid mülahizələr söyləmək və s.daxildir.

**Tərbiyəedici məqsəd** – coğrafiya fənninin tədrisində mühüm yer tutur. Fənnin tədrisində Azərbaycanın qloballaşma prosesindəki mövqeyi, antropogen dəyişikliklərin bəşəriyyətin inkişafına təsiri, ekoloji, iqtisadi tərbiyə, dünya xalqlarının müxtəlif xüsusiyyətlərinə (dini, irqi, dil və s.) tolerant yanaşma və s problemlərin həllinə yönəldilmiş məqsədləri həyata keçirmək mümkündür.

Tərbiyəedici məqsəd kimi şagirdlərin:

- müxtəlif təcrübə və müşahidələrin aparılması məqsədi ilə fərdi və qrup şəklində fəaliyyəti (məhəldə cəhət təyini, hava müşahidələrinin aparılması, məhəllin planın tərtib olunması və s.), nəticələrin təqdim edilməsi və s.

- diyarşünaslıq materiallarının seçilməsi və komplektləşdirilməsi, vətəndaşlıq mövqeyinin formalaşdırılması

- iqtisadi təfəkkür, ekoloji və coğrafi mədəniyyətin inkişafını və s.təmin edir.

Müasir dövrdə coğrafiya tədrisinin məqsədlərinə şagirdlərin fənnə dair nəzəri bilik və bacarıqlarının praktik olaraq tətbiq edilməsi və onların gələcək də sosial fəaliyyətini aktivləşdirməyə yönəldilən tədbirlərin həyata keçirilməsinə verilən tələblər də daxil olmuşdur.

Didaktikadan fərqli olaraq (didaktika – yunan dilində öyrədirəm deməkdir ) pedaqogikanın mühüm sahələrindən biri olan, metodika, təlim və təhsil prosesinin nəzəri əsaslarını təhlil edir. Metodikanın ikinci aspekti onun həm də tətbiqi elm sahəsi olmasıdır.

Nəzəri elm kimi coğrafiyanın tədrisi metodikası elmi – tədqiqat işlərinin istiqamətlərini, fənnin təliminin məqsəd və vəzifələrini məktəb coğrafiyasının məzmununu, əsas istiqamətləri, strukturunu metodikanın inkişaf tarixini, xarici ölkələrdəki inkişafını, milli kurrikulumda coğrafiyanın yerini, insan faktorunu fənnin mərkəzinə gətirilməsini, fənnin məzmun xəttinin əsaslandırılmasını, fiziki və iqtisadi coğrafiyanın inteqrasiyasından yaranan konstruktiv coğrafiyanın əhəmiyyətini, coğrafi biliklərin qiymətləndirilməsi yollarını, eləcə də fənnin pedoqoji, psixoloji əsaslandırılmasını və s.öyrənir.

Coğrafiya tədrisinin tətbiqi xarakteri, müxtəlif metodların, yeni vasitələrin, təşkilat formalarının pedoqoji texnologiyaların bilavasitə təlim prosesinə tətbiq edilməsi ilə müəyyən olunur. Tədris metodlarının daima təkmilləşdirilməsi, yeni metodların işlənilməsi, və s.problemlər də coğrafiya tədrisinin tətbiq xüsusiyyətində əks olunur.

Dünya ölkələrində təhsilin inteqrasiyası, cəmiyyətin inkişafı, məktəb coğrafiyasının məzmunu, fiziki və iqtisadi-sosial coğrafi biliklərin yaxınlaşması nəzəri və faktiki biliklərin bir-birini tamamlaması tədris proqramında yeni – ölkəşünaslıq istiqamətində yanaşmanı tələb edir. Məktəblilərin ekoloji və iqtisadi təhsil səviyyəsinin yüksəldilməsi, bu prosesdə kollektiv işin vacib olması, müəllim yaradıcılığının labüdlüyü, müəllim –

şagird ünsiyyətinin yeni aspekti coğrafiya tədrisi metodikasında «tədris metodları» termininin daha çox «tədris texnologiyaları» ilə əvəz olunmasına zəmin yaradır. «Tədris texnologiyaları» anlayışı son illər qərb ölkələrində

yaranmış və əsasən qabaqcadan müəyyən edilmiş və planlaşdırılmış məqsədə çatmaq üçün şagirdlərlə aparılan tapşırıqlar toplusunu (onların məzmunu, aparılması, qiymətləndirilməsi qaydalarını) əhatə edir. Texnologiya tədris prosesini daha təsirli etmək məqsədi daşıyır (eləcə də hər bir şagirdin müvəffəqiyyətini düzgün qiymətləndirməyə imkan yaradır) və tədris prosesini sistem şəkilinə salır. (Sxem 2)

**Pedaqoji texnologiyanın məzmunu.** **Sxem 2.**




Coğrafiya tədrisi metodikasının nəzəri və tətbiqi istiqamətləri əslində bir-biri ilə əlaqədardır. Kursun məzmununa:

- orta ümumtəhsil məktəblərində tədris olunan coğrafiya fənninin strukturu, məzmunu və digər ümumi məsələləri;
- məktəb coğrafiyasının təlim xüsusiyyətləri, tədris metodları, vasitələri, təşkilat formaları, müxtəlif texnologiyaların tətbiqi

- məktəb coğrafiyasının ayrı-ayrı kurslarının – «Ümumi fiziki coğrafiya», «Materiklərin və okeanların fiziki coğrafiyası», «Yerşünaslıq», «Dünyanın iqtisadi və sosial coğrafiyası», «Azərbaycan Respublikasının fiziki coğrafiyası», «Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası», «Türk dünyasının coğrafiyası»-nın məzmunu və tədrisi məsələlərindən ibarətdir.

Coğrafiya tədrisi metodikasının əsas vəzifəsi digər pedoqoji elmlər kimi məktəbin təlim tərbiyə vəzifələrinə uyğun gələn tədbirləri həyata keçirməkdir. Tədqiq olunan problemlər aşağıdakılardan ibarətdir:

**a)** məktəb coğrafiyasının təhsil vəzifəsini həyata keçirmək – coğrafi təfəkkürün formalaşması üçün sistemli iş aparmaq, müasir qloballaşma dövründə cəmiyyətin hər bir üzvünün müəyyən olunmuş coğrafi biliklərə sahib olaraq «coğrafi mədəniyyətə» malik olmasına nail olmaqdır. Beynəlxalq miqyasda ümumitəhsil məktəblərində coğrafi biliklər – fəlsəfə, tarix, xarici dil ilə eyni müstəvidədir.

«Coğrafi mədəniyyətin» tərkib hissəsi kimi:

- ətraf aləmi elmi şəkildə başa düşmək;
- coğrafi dil, – anlayış, termin, qanunauyğunluq, prinsip və nəzəriyyələri – anlamaq;
- coğrafi mühit komponentlərini, onların mahiyyətini, ekoloji vəziyyətini və dəyişməsini müşahidə etmək;
- təbiətdə mövcud olan səbəb-nəticə əlaqələrini dərk etmək, onlara aid proqnozlar vermək;
- coğrafi təsəvvürlərin, bilik və bacarıqları xəritə və digər kartoqrafik təsvirlərdə tətbiq etmək və s. xüsusiyyətləri durur.

Şagirdlərin intellektual səviyyəsinin artmasında, mənəvi dəyərlərin qiymətləndirilməsində bəşəriyyətin coğrafi mühitdəki rolunun öyrənilməsində - coğrafiya fənninin rolu əvəzedilməzdir.

b) məktəb coğrafiyasının məzmununu – müəyyən etmək coğrafiya tədrisi metodikasının ən mühüm vəzifələrindən biridir. Fiziki və iqtisadi sosial coğrafiyanın inteqrasiyasına istiqamətlənmiş – müasir məktəb coğrafiyası şagirdlərdə kompleks coğrafi biliklərin formalaşmasına kömək edir.

c) coğrafiya müəlliminin təlim fəaliyyətinə – elmi – nəzəri – metodik bilik səviyyəsinin artırılması, «müəllim – şagird» ünsiyyətinin beynəlxalq normalara uyğun qəbul etməsinə dair biliklər daxildir.

d) şagirdlərin coğrafi biliklərə sahib olması, onların maraqlandırılması üçün seçilmiş mövzu, metodları – coğrafiya tədrisi metodikasının vəzifələri sırasına aiddir.

e) coğrafiya fənninin - cəmiyyətin tərbiyəsindəki rolunu müəyyən etmək – tədris metodikasnın başlıca vəzifələrindən biridir:

- yaradıcı və müstəqil düşünmə qabiliyyəti;
- müstəqil olaraq biliklərə yiyələnmək bacarığı;
- məlumatı məntiqi təhlil etmək, tənqidi qiymətləndirmək, təcrübədə istifadə etmək və yaradıcı sürətdə dərk etmək qabiliyyəti;
- demokratik cəmiyyətin dəyərlərinə hörmət və vətənpərvərlik hissi;
- ədalətlilik, mənəvi sərvətlərə, mədəniyyət və ənənələrə hörmət etmək hissi;
- davranış bacarığı, mütəşəkkillik , ünsiyyət vərdişləri, təbiətə sevgi hissi, digər xalqlar, dinlər və etiqatlara tolerant yanaşma və s-ləri inkişaf etdirməyi nəzərdə tutur.

Coğrafiya tədrisi metodikası təlim tərbiyə sisteminin ümumi prinsiplərini demokratikləşdirmə, humanistləşdirmə, differensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya və humanitarlaşdırma əsas və Azərbaycan Respublikasının təhsil sistemində təlim prosesinə yanaşma keyfiyyətcə dəyişmiş:

- şagirdyönümlü
- inkişaf etdirici

- çeviklik
- əməkdaşlıq
- qrupda işləmək

prinsiplərini tətbiq edərək fəal təlimi inkişaf etdirməyə yönəldilmişdir.

Coğrafiyanın tədrisi metodikasının əsas məqsədlərindən biri şagirdlərin coğrafiya dərslərində

- coğrafi bilikləri yaradıcı olaraq (xəritə, sxem, məhəldə və s.də) tətbiq etmək;
- müstəqil olaraq coğrafi biliklərə yiyələnmək, yenilərini əldə etmək, proqnozlar vermək,
- coğrafi biliklərin əldə edilməsində öz yoldaşları ilə əməkdaşlıq etmək və s.üçün yollar axtarmaq, yeni strategiyalar tətbiq etməkdir.

## 1.2. Coğrafiya tədrisi metodikasının inkişaf tarixi

Cəmiyyətin inkişaf tarixində öyrənmə problemi heç vaxt öz aktuallığını itirməmiş, eləcə də coğrafiya fənni üzrə «nəyi» və «necə» öyrənmək daima tədqiqatçıların maraq dairəsində olmuşdur. Bu motiv isə fənnlərin inkişaf etməsinə səbəb olmuşdur. Coğrafiya tədrisi metodikasının inkişafı da bilavasitə məktəbdə coğrafiyanın tədrisi ilə əlaqədardır.

Cəmiyyətin coğrafiya fənnin tədrisində tələb etdiyi – tərbiyə və təhsilin mahiyyəti tarixən müxtəlif məzmuna malik olmuşdur və coğrafiyanın tədrisi metodikası da ona uyğun istiqamətdə inkişaf etmişdir.

Coğrafiya tədrisi metodikasının banisi dünya miqyaslı Çex pedaqoqu Yan Amos Komenski (1592-1670) qəbul edilir.

Didaktikanın yaradıcısı hesab olunan Y. Komenski ilk dəfə olaraq coğrafiya fənninin tədrisində ətraf aləm və təbiətdə baş verən hadisə və proseslərin müşahidə etməklə